# MÜSTƏQİLLİK İLLƏRİNDƏ RESPUBLİKA ELMİ TİBB KİTABXANASININ İNFORMASİYALAŞDIRILMASI

**H.O.ZEYNALOVA**
***Bakı Dövlət Universiteti***

*Müstəqillik illərində Azərbaycanda tibb və səhiyyənin inkişafı haqqında məlumat verilmiş, Respublika Elmi Tibb Kitabxanasında kitabxana işininin əsas istiqamətləri, Respublika Elmi Tibb Kitabxanasının informasiyalaşdırılması, 2005-2010-cu illər ərzində qəbul edilən qanun və sərəncamlar verilmişdir.*

**Açar sözlər:** *səhiyyə, təbabət, tibb, informasiya, infomasiyalaşdırma, kitabxana*

Azərbaycanın müstəqillik əldə edərək, demokratik, hüquqi dövlət quruculuğunu həyata keçirməsi tibb sahəsində də islahatların aparılmasını zəruriləşdirmişdir. Bu islahatlar həmin sistemə daxil olan kitabxanaların da fəaliyyətinə öz təsirini göstərir və onların informasiya xidməti vəzifələrini xeyli mürəkkəbləşdirir.

İnformasiyalı cəmiyyətin əsasında informasiya texnologiyaları durur. İnsan fəalliyyətinin müxtəlif sahələrini əhatə edən bu texnologiyalar dünyada tibb sahəsində də tətbiq olunmaqdadır. Dünya Səhiyyə Təşkilatı tərəfindən Elektron səhiyyəyə tibb müəssisələrində informasiya və telekommunikasiya texnologiyalarının istifadə edilməsi kimi geniş imkan verilmişdir. Tibbi-sanitar xidmətinin ən dinamik inkişaf edən istiqaməti olaraq, elektron səhiyyə ölkələrin səhiyyə sistemində olan bərabərsizliyi aradan götürən amillərdən biridir. Elektron səhiyyənin əsasını səhiyyə müəssisələrində İKT texnologiyalarının istifadə olunması mexanizmləri təşkil edir. Bura, əlverişli elektron səhiyyə siyasəti, infrastrukturun əsaslanmış inkişafına diqqət, təminat və təchizat problemlərinə iqtisadı cəhətdən effektivli yanaşma, ölkənin məqsədlərinə uyğun düzgün maliyyələşdirilmə, uzunmüddətli partnyorluğun yaradılması və səhiyyə mütəxəssislərinin tədrisi daxil olunur.

Respublikamızda səhiyyə sahəsində nailiyyətlərin əldə edilməsində, tibb elminin aktual məsələlərini, səhiyyə müəssisələrinin zəngin iş təcrübəsini, elmi-tədqiqat institutlarının nailiyyətlərini təcrübi həkimlərə çatdırmaq üçün geniş tibb kitabxanaları şəbəkəsi fəaliyyət göstərir.

Azərbaycanda Səhiyyə Sektorunda İslahatlar layihəsinin (SSİL) məqsədi səhiyyə sistemi üzrə idarəetmə və maliyyələşdirməni təkmilləşdirməkdən və sağlamlıq göstəricilərini yaxşılaşdırmaq baxımından maliyyə təminatını və davamlılığını təmin etməklə seçilmiş pilot rayonlarda zəruri səhiyyə xidmətlərinə çıxış imkanlarını və bu xidmətlərin keyfiyyətini artırmaqdan ibarətdir.

SSİL Azərbaycan hökuməti ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında
09.10.2006-cı ildə imzalanmış və 20.12. 2006-cı ildə qüvvəyə minmiş
Maliyyələşdirmə Sazişinə əsasən həyata keçirilir və 20.12.2006-31.12.2012-ci
illəri əhatə edir. Layihənin ümumi dəyəri 78.25 milyon ABŞ dolları
məbləğindədir. Bu vəsaitin 50 milyon ABŞ dolları Beynəlxalq İnkişaf
Assosiasiyasının ayırdığı kredit, 28.25 milyon ABŞ dolları isə Azərbaycan
hökuməti tərəfindən maliyyələşdirilir. Layihə 5 (beş) komponentdən ibarətdir:
I Səhiyyə Nazirliyinin idarəetmə potensialının gücləndirilməsi, II səhiyyə
xidmətlərinin çatdırılmasının yaxşılaşdırılması, III Səhiyyənin davamlı maliy-
yələşdirilməsi və resursların səmərəli bölgüsünün təmin edilməsi, IV Kadr
resurslarının inkişaf etdirilməsi, V Layihənin idarə edilməsi, monitorinq və
qiymətləndirilməsi.

Azərbaycan dövlətinin qarşısında duran başlıca vəzifələrdən biri ölkənin
elm siyasətində islahatların aparılması zərurətidir. Buna görə də elmin
inkişafı, elmi-texniki potensialın qorunub saxlanılması, elm və təhsil
sahəsində yüksək ixtisaslı kadrların hazırlanması, cəmiyyətdə elmi işçilərin
nüfuzunun artırılması, mədəniyyətimizin dirçəldilməsi sahələrinə yönəldilmiş
bir sıra qərarlar qəbul edilmişdir.

Son dövrlərdə ölkə başçısı, prezident İlham Əliyevin səhiyyə, tibb sahəsi
ilə əlaqəli qəbul etdiyi qanun və sərəncamlar olkəmizin səhiyyə sistemində
müsbət dəyişikliklərə gətirib çıxartmışdır. “Dağınıq skleroz xəstəliyinə
tutulmuş şəxslərə dövlət qayğısı haqqında” Azərbaycan Respublikasının
Qanunu, “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respub-
likasının Qanunu, “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan
Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respubli-
kasının Qanunu, “Qan və onun komponentlərinin donorluğu haq-qında”,
“İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin (AIDS) yayılma-
sının qarşısının alınması haqqında”, “Əczaçılıq fəaliyyəti haqqında”, “Əhali-
nin radiasiya təhlükəsizliyi haqqında”, “İnsan orqan və (və ya) toxumalarının
transplantasiyası haqqında” qanunlar 2006-2011-ci illərdə qəbul edilmişdir.
Eyni zamanda “Tibbi sığorta haqqında”, “Özəl tibb fəaliyyəti haqqında”,
“Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında”, “Narkoloji xid-
mət və nəzarət haqqında”, “Psixiatriya yardımı haqqında”, “Yod çatışmazlığı
xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması
haqqında”, “Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı
haqqında”, “Dərman vasitələri haqqında” qanun və sərəncamlar 2009-2011-ci
illər ərzində qəbul olunmuşdur.

“İnformasiyalaşdırma-informasiya ehtiyatlarının formalaşdırılması, təq-
dim edilməsi, istifadə olunması əsasında dövlət hakimiyyəti və yerli özünü
idarə orqanlarının, təşkilatı, hüquqi və mülkiyyət formasından asılı olmayaraq
bütün vətəndaşların informasiya tələbatlarının və bu sahədəki hüquqlarının





təmin edilməsində optimal şəraitin yaradılması üçün təşkilati, sosial-iqtisadi və elmi-texniki prosesdir.” Elmin ən aktual problemləri ilə əlaqədar dünya səviyyəsində əldə edilən nailiyyətlərin fasiləsiz olaraq çatdırılması məsələsi əsrin aktual problemlərindəndir. XXI əsr informasiya əsri adlanır. XXI əsr kitabxanaların qarşısında kitabxana-informasiya xidmətinin təkmilləşdirilməsi və yenidən baxılması vəzifəsini qoymuşdu.

“Azərbaycan Respublikasında kitabxana – informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı”nda göstərilir ki, tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanılmasında, çatdırılmasında və cəmiyyətin intellektual, mənəvi potensialının inkişafında əvəzsiz rol oynayan kitabxanaların fəalliyyətinin təkmilləşdirilməsi bu sahədə islahatların aparılmasını, fondların müasir informasiya daşıyıcıları ilə zənginləşdirilməsini, dünyanın qabaqcıl kitabxana-informasiya müəssisələrinin təcrübəsindən istifadə edilməsini, elektron məlumat banklarının yaradılmasını, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsini zəruri edir və bütün bunlar mədəniyyət sahəsində kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsini zəruri edir və bütün bunlar mədəniyyət sahəsində dövlət siyasətinin əsas istiqamətlərindəndir. Artıq müasir informasiya cəmiyyətində kitabxanaların kommunikasiya sistemində rolu və əhəmiyyəti o qədər artmışdır ki, kitabxanalarsız cəmiyyətin informasiya tələbatını ödəmək mümkün deyildir. Kitabxanalar cəmiyyətdə elmin və mədəniyyətin inkişafında, təhsil və tərbiyənin yüksəldilməsində, həmçinin insanların informasiya təminatında mühüm sosial institut kimi yaxından iştirak etməklə ən çox istifadə olunan müəssisəyə çevrilmişdir.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Konstitusiyasının “Sağlamlığın qorunması hüququ” adlı 41-ci maddəsində deyilir:

**I** Hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır.

**II** Dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görür, sanitariya-epidemiologiya sağlamlığına təminat verir, tibbi sığortanın müxtəlif növləri üçün imkanlar yaradır.

**III** İnsanların həyatı və sağlamlığı üçün təhlükə törədən faktları və halları gizlədən vəzifəli şəxslər qanun əsasında məsuliyyətə cəlb edilirlər.

Professor A.Xələfov yazır: “Respublikamızda əhaliyə kitabxana xidmətinin təşkili sistemində tibb kitabxana şəbəkəsinin də xüsusi mövqeyi vardır. Əsasən xüsusi kitabxanalar tipinə mənsub olan tibb kitabxanaları mütəxəssislərə, orta və ali tibb təhsilli müəssisələrinin müəllim və tələbələrinə, tibbə dair elmi-tədqiqat institutlarının alim və elmi işçilərinə xidmət etmək üçün yaradılır. Azərbaycanda 60-cı illərdən başlayaraq ixtisaslaşdırılmış tibb kitabxanalarının çoxşaxəli şəbəkəsi təşəkkül tapmağa başlamışdır. Tibb kitabxanalarının qarşısında əhalinin sağlamlığı keşiyində

duran bütün səhiyyə müəssisələrinin, tibb sahəsi üçün kadrlar hazırlayan ali və orta tibb təhsili müəssisələrinin, elmi-tədqiqat institutlarının işçilərinə kitabxana-informasiya xidməti göstərmək, onların sorğularını ödəmək vəzifəsi qoyulmuşdur."

Tibb kitabxanalarının əksəriyyətinin bilavasitə Səhiyyə Nazirliyinin sərəncamında olması onlara vahid rəhbərliyi asanlaşdırmaqla, kitabxanaların işinin əlaqələndirilməsinə və metodik təminatına da müsbət təsir göstərir.

Məlumdur ki, əhaliyə tibb xidmətinin səmərəliliyinin yüksəldilməsi bilavasitə dünya tibb elminin ən yaxşı nailiyyətlərinin təcrübi işdə tətbiqinə nə dərəcədə operativ nail olmaqla əlaqədardır. Elmin nailiyyətlərinin tibb praktikasında tətbiqinin müasir baxımdan anlaşılması səhiyyə müəssisələrinin yeni profilaktika, diaqnostika və müalicə metodlarının ən tez mənimsənilməsinə yönəldilmiş elmi-tədqiqat və praktiki tədbirlərin tam bir sistemini nəzərdə tutur. Bu tədbirlər sistemində tibb yeniliklərini özündə əks etdirən informasiya mənbələrinin daha operativ və səmərəli şəkildə informasiya istifadəçilərinə çatdırılmasına təsir edən bütün vasitələr, informasiya mənbəyi olan kitabxanalar mühüm rol oynayır. Tibbə dair informasiya ehtiyatlarını özündə toplayan, mühafizə edən, informasiya istifadəçilərinə çatdıran, kitabxana xidməti həyata keçirən Respublika Elmi Tibb Kitabxanası bu sahədə mühüm işlər görür. Kitabxananın qarşısında duran əsas məqsəd Azərbaycanın informasiya məkanında Respublika Elmi Tibb Kitabxanasının yerini müəyyən etməkdən və sahə üzrə kitabxananın fəaliyyətinə dair sənədləri, məlumatları, faktları dərindən təhlil edib elmi dövriliyə daxil etməkdən ibarətdir.

Məlumdur ki, ayrı-ayrı sahələr üzrə mütəxəssislərə və elmi-işçilərə xidmətin təkmilləşdirmək üçün onların informasiya tələbatının müntəzəm olaraq öyrənilməsi və alınan nəticələrin praktikaya tətbiqi mühüm əhəmiyyət kəsb edir.

İnformasiya tələbatının subyekti informasiyanı tələb edən ayrı-ayrı şəxs, eləcə də kollektiv ola bilər. Tibb sahəsi üzrə informasiyanın kollektiv tələbatçısı respublikamızın müvafiq müəssisələri hesab olunur. Azərbaycanda tibb üzrə mütəxəssislərin təbabətin ayrı-ayrı sahələri üzrə məşğul olması onların biblioqrafik informasiya istifadəçisi kimi qruplaşdırmağa imkan verir. Bu informasiya istifadəçilərini təsnifləşdirən zaman peşə fəaliyyət sahəsi də mühüm rol oynayır. Buna uyğun olaraq tibb üzrə informasiya tələbatçılarını aşağıdakı kimi qruplara bölmək olar:

Rəhbər işçilər, tədqiqatçılar, ali və orta ixtisas tibb məktəblərinin pedaqoji kadrları, praktiki işçilər, həkimlər, orta tibb işçiləri.

Bu informasiya istifadəçiləri də öz növbəsində tutduqları peşə fəaliyyət sahəsinə görə daha kiçik qruplara bölünürlər. Məsələn, tədqiqatçılar qrupu öz növbəsində tibb sahəsində fundamental tədqiqatlar aparan alim nəzəriyyəçilərə, müxtəlif təcrübələr aparan alim praktiklərə bölünür. Ali və orta məktəblərdən olan informasiya istifadəçiləri isə öz növbəsində müəllim, tədqiqatçı və laborantlara bölünür. Tibb işçilərini vəzifəyə görə qruplaşdırmaq ən geniş yayılmış təsnifatdır. Bu vaxt tələbatçıları üç qrupa bölürlər:

1. Tibb üzrə elmi-tədqiqat müəssisələrinin direktoru, onun müavinləri, elmi katib.
2. Şöbə, sektor, qrup müdirləri.
3. Elmi işçilər, aspirantlar, magistrantlar.

Kollektiv tələbatçıları təsnifləşdirdikdə əsasən kollektivin əmək fəaliyyəti tipini, məqsədini, informasiya istifadəçisinin fəaliyyət vəzifələrini və s. nəzərə almaq lazımdır. Belə hallarda tələbatçılar rolunu elmi-tədqiqat müəssisələri, elmi ocaqlar, laboratoriyalar, şöbələr, müəyyən mövzu ətrafında işləyən bir qrup alim oynayır.

Tibb üzrə avtomatldaşdırılmış məlumat axtarış sisteminin mənimsənilməsi mütəxəsislər tərəfindən xüsusilə qiymətləndirilir. Belə ki, bu sisitemin köməyi ilə tədqiqatçı ona lazım olan informasiyanı daha dolğun və operativ surətdə alır. Belə olan surətdə tədqiqatçı daha düzgün və tezliklə nəticə əldə edib, onu praktikaya tətbiq edir. Belə hallarda biblioqrafik xidmətin yüksək keyfiyyəti biblioqraifk məlumatlarda tələbatı stimullaşdırır, tədqiqatçıda bu məlumatlara qarşı xüsusi maraq yaradır.

Tibb elmi ilə məşğul olan şəxslərdə xarici ədəbiyyata daha çox maraq olur. Tədqiqatlar göstərir ki, yüksək ixtisaslı kadrlar daha çox xarici ədəbiyyatla maraqlanırlar. Tibb sahəsində informasiyaya olan münasibət xüsusi xarakter daşıyır. Tibb sahəsində çalışan tədqiqatçıların maraq və tələbi çox olur. Bu da onunla əlaqədardır ki, bu sahədə çoxlu əsərlər dərc olunur. Belə tələbat yüksək inkişafla əlaqədardır.

Respublika Elmi Tibb Kitabxanasında əldə etdiyi nailiyyətləri ilə bərabər çatışmayan cəhətlər də mövcuddur. Belə ki, kitabxanada 2005-2010-cu illər arasında tərtib olunan bir sıra metodik vəsaitlər maliyyə vəsaiti çatmadığına görə hələ də çap olunmamış qalmaqdadır.

İnformasiyalaşdırılmış cəmiyyətin formalaşdığı, dünya informasiya məkanında inteqrasiya proseslərinin getdikcə gücləndiyi bir şəraitdə kitabxanaların yeni statusunu müəyyənləşdirən metodik vəsaitlər sisteminin formalaşması ölkədə informasiya təminatının səmərəliliyinin mühüm amili kimi meydana çıxır. Yeni tipli sənədlər informasiyalaşdırılmış cəmiyyətdə kitabxana işinin strateji inkişaf yollarının, kitabxanalarda yeni texnologiyaların tətbiqinin, milli kitabxana-biblioqrafiya strategiyasının yaradılmasının təminatında əsaslı rol oynamalıdır. Bu sənədlər respublikamızda fəaliyyət göstərən bütün metodik mərkəzlərdə hazırlanmalı, toplanmalı və geniş istifadə edilməlidir. Belə sənədlər dünya təcrübəsindən istifadə edilməklə hazırlanmalı, bütün kitabxanalara tətbiq edilməlidir.

Respublika Elmi Tibb Kitabxanasının yaxın gələcəkdə fəaliyyətinin yeniləşməsi və gələcək inkişafının strateji istiqamətlərini belə müəyyənləşdirmək olar: Azərbaycanda ictimai həyatın müasir səviyyəsi, müstəqillik şəraitində ölkədə baş verən çox dərin siyasi, sosial-iqtisadi və mədəni-mənəvi dəyişikliklər Respublika Elmi Tibb Kitabxanasının kitabxana fəaliyyətinin qarşısında yeni ciddi tələblər qoyur. Bu ilk növbədə kitabxana informasiya tələbatçılarının fəallaşması və onların ümumbəşəri mənəvi dəyərlərə yiyələnmək və bu məqsədlə dünya informasiya məkanına sərbəst və maneəsiz daxil olmaq zərurəti ilə bağlıdır.

Bu baxımdan oxucuların kitabxana informasiya təminatında heç bir məhdudiyyətə yol verilməməlidir.

Kitabxanaya il ərzində Azərbaycanın müxtəlif regionlarından tibbi mütəxəssislər müraciət edir. İl ərzində oxucu gəlişi 4000 nəfərə bərabərdir. Burada onların ixtiyarına rahat oxu zalları verilmişdir. 2005-2010-cu illərdə kitabxananın kitab verilişi 23000 vahid nüsxə olmuşdur. Oxuculara xidmət müasir səviyyəli informasiya texnologiyası əsasında aparılır. Burada İnternet vasitəsilə müxtəlif verilənlər bazasına girişi təmin edən iki müxtəlif kompüter zalı fəalliyyət göstərir.

Oxucularının sorğularının tam ödənilməsi məqsədilə kitabxana fondunda olmayan ədəbiyyat kitabxanalararası abonement (KAA) vasitəsilə əldə edilir.

Son illər RETK-sı tibb üzrə ədəbiyyatın toplanması, mühafizəsi və istifadəsilə məşğul olan mədəni-maarif müəssisələrindən respublikanın tibb və səhiyyə üzrə həqiqi informasiya və kitabxana xidməti mərkəzinə çevrilmişdir. Kitabxana həm də elmi-tədqiqat fəaliyyəti ilə məşğuldur. Burada müxtəlif səpgili biblioqrafik göstəricilər işlənib hazırlanır.

Kitabxananın fəaliyyət sahəsinə həmçinin informasiya materialları əsasında tibb mütəxəssislərinə ən son nailiyyətlər haqqında informasiyanın çatdırılması, informasiyanın seçilib yayılması (İSA), səhiyyə rəhbərlərinə differensial xidmət, «İnformasiya günü», «Mütəxəssis günü» kimi operativ xidmət formalarını müsəqillik illərində də həyata keçirir.

Kitabxana ölkənin tibb müəssisələrinin kitabxanalarına təcrübi kömək göstərir və tibb kitabxana işçilərinin peşə səviyyəsinin artırılmasına yardım edir.

Respublika Elmi-Tibb kitabxanasında aparılan işin əsas vəzifəsini tibb sahəsi üzrə elmi fəaliyyətin və tədris-tərbiyə təşkil edir. Bunlar orada aparılan китабхана işinин əsas funksiyalarını təyin edir. Tibb sahəsi üzrə ali məktəbin, şəbəkəyə daxil olan digər kitabxanaların aparılan elmi fəaliyyət elmi informasiya şöbəsi ilə əlaqələndirilir.

Azərbaycan səhiyyəsinin XXI əsrdəki perspektiv inkişafına gəldikdə isə, təbii ki, onun da qarşısında geniş üfüqlər açılacaqdır. Azərbaycan səhiyyəsi bütün əsr boyu dünya təbabət elmindən bəhrələnərək, inkişaf etmiş dünya ölkələrinə inteqrasiya olunacaqdır. Ümid etmək olar ki, Respublika Elmi Tibb Kitabxanası və şəbəkəyə daxil olan kitabxanaların bu sahədəki fəaliyyətləri daha da intensivləşəcək, informasiyalı cəmiyyətin tələbatına uyğun biblioqrafik fəaliyyəti ən yeni forma və üsullarla yeni texnologiyaların tətbiqi yolu ilə operativ həyata keçirməyə nail olacaqdır.





## ƏDƏBİYYAT:

1. *Azərbaycan Respublikasının Konstitusiyası :12 noyabr 1995-ci ildə qəbul edilmişdir (24 avqust 2002-ci il tarixdə olan dəyişiklik və əlavələrlə). B.: Qanun, 2004, 48 s.*

2. *"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu // Azərbaycan, 1999, 14 mart.*

3. *"Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə dövlət proqramı"//Bakı, Respublika qəz., 2008, 7 oktyabr.*

4. *İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında: Azərbaycan Respublikası Milli Məclisinin Qanunu //Azərbaycan Respublikası Qanunvericilik toplusu, 1998, №6, s. 1214-1222*

5. *Xələfov A.A. Cəmiyyətin informasiya təminatında kitabxanaların tarixi rolu //BDU-nun Xəbərləri: Humanitar elmlər seriyası. B.,1999, №4, s.221-227.*

6. *Xələfov A.A. İnformasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri //Respublika, 2002, 17 aprel.*

7. *Respublika Elmi-Tibb Kitabxanasının hesabatları. 2005-2010*

**The scientific medical library information years of independence**

**H.O.Zeynalova**

***Summary***

*The article is devoted on the development of medicine and health care in the years of independence of Azerbaijan, also in this article highlights the main aspects of the Republican Scientific Medical Library, its computerization, laws and decrees adopted by 2005-2010-s years.*

**Keywords:** *health, medicine, medical, information, information, library*

**Информатизация Научно-медицинской библиотеки в лет независимости**

**Х.О.Зейналова**

***Резюме***

*Статья посвящена на развитие медицине и здравоохранения в годе независмости Азербайджана, также в этой статье освещаются основные аспекты Республиканская научная медицинская библиотека, ее компьютеризация, законы и постановления, принятые 2005-2010 –е годы.*

**Ключевые слова:** *здоровье, медицина, медицинская, информация, inforinformasiyalasdırma, библиотека*